# “Heydər Əliyev İli” hər birimizin hesabat dövrü olacaq

## Yaxud, mən “milyonların getdiyi yoldan kənara”çıxmadım



***Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.***

***Prezident İlham Əliyevin 2023-cü ilin ölkəmizdə “Heydər Əliyev İli” elan edilməsi haqqında sərəncamından 29 sentyabr 2022-ci il***

### Xalqın mövqeyi

Uşaqlar öz atasını hamıdan güclü hesab edirlər. Mən də elə idim. Bütün yetkin insanlar atasının tədbirliliyini, səbr və təmkinini, eləcə də, uzaqgörənliyini müdriklik kimi qiymətləndirirlər. Mən də eləyəm. Mən rəhmətlik atamın müdrikliyini 1997-ci ilin əvvəllərində – ömrünün başa çatmasına bir neçə ay qalmış hiss etmişdim.

…Evdə dörd nəfər idik. Atam, ibtidai siniflərdə mənə dərs demiş Murad müəllim, kiçik qardaşım Qənimət (Allah üçünə də rəhmət eləsin!), bir də mən. Atam sanki vəsiyyət edirdi: “ Sən düz yoldasan, İttifaq. Heydər Əliyevin qəzetində işləməklə (kənddə elə bilirdilər ki, bizim qəzeti birbaşa Prezident nəşr etdirir) camaatın (atam həmişə xalqı camaat adlandırırdı) sabahına xidmət etmiş olursan. Mən müharibənin çox dəhşətlərini görmüşəm. Ancaq o müharibə ilə vətəndaş müharibəsinin fərqi çoxdur. Azərbaycanda vətəndaş müharibəsi olsaydı, bu camaat yüz illər boyu rüsvayçılıqla yaşayacaqdı. Onda bizim Qarabağ haqqındakı sözümüzü kim eşidərdi ki? Heydər Əliyev bizi həmin müharibədən qurtarıb”.

Murad müəllim (o, ləzgi Qəribin oğlu idi və burada müəllimimin milli kimliyini yada salmağım təsadüfi deyil) isə həqiqətən, müəllim idi: “Məmmədcan qardaş, indi ölkə əhalisinin bəlkə də hamısı sən deyəni deyir. Narahat olma, mənim şagirdim olmuş İttifaq milyonların getdiyi yoldan kənara çıxmaz.”

…Evdə dörd nəfər idik və dördümüz milyonların iradəsini ifadə etməyə çalışırdıq.

### Ziyalı qiymətləndirməsi

… Azadlıq fədaisi Xəlil Rza Ulutürkün səhhətinin zəiflədiyi günlər idi. Ancaq xalq onun “sönməsi” ilə barışa bilmirdi. Hamı bu alovlu şairi meydanlarda olduğu kimi – kükrəyən görmək istəyirdi. Ali məktəblərdə, mədəniyyət ocaqlarında, yaradıcılıq mərkəzlərində – hər yerdə onunla görüşlər təşkil edilirdi. Baş redaktorumuz Heydər Zeynaloğlunun (o zaman Dövlət Radiosunun Xəbərlər Baş Redaksiyasında çalışırdım) təşəbbüsü ilə həmin görüşlərin bir neçəsində mən də iştirak etmişdim.

Dəqiq xatırlaya bilmirəm, o tədbirlərin hansındasa Xəlil bəydən xahiş etdilər ki, bir şeir oxusun. Astadan, zəif səslə, amma sızlamadan, mərdanə şəkildə oxumağa başladı:

*Azadlıq Allahı tək əyləşib öz yerində,*
*Yerin-göyün nuru var peyğəmbər gözlərində.*
*Sadəliyi nur saçır, əzəməti dərində.*
*Gedir polad çiyində*
*Kəpəz, Qoşqar boyda yük.*
*Dədə Heydər – Atatürk!*

Xəlil bəyin səsinin “o səs olmadığını” görən Xalq artisti Mikayıl Mirzə, sanki, tədbirin keçirildiyi binanı silkələyəcək bir səslə davam etdi:

*Dərin mavi gözləri sakit yanan od-ocaq,*
*Alovunda satqınlar yanacaq, kül olacaq.*
*Qaranlıqda işıqlar – o işığa yol açaq.*
*Məsləki varlığımdan böyükdür,*
*min qat böyük,*
*Böyüklük heykəlidir*
*Dədə Heydər – Atatürk!*

Amma ürəkləri riqqətə gətirən lövhə bununla bitmədi. Heç kəsin gözləmədiyi halda, çıxışı nəzərdə tutulmayan, tamaşaçılar arasında əyləşən gənc bir qız Mikayıl Mirzə kimi söz, səhnə sərkərdəsinin sözünü kəsdi:

*Dörd tərəf qar, sərt ayaz – o, güllü yazdır,*
*Dinc, mülayim səsi də qaynar bir ehtirasdır.*
*Ərzurumdan Xəzərə şığıyan Xan Arazdır.*
*Dalğasında dönüklər ağ köpükdür, boz köpük.*
*Dalğalanır nəhr tək*
*Dədə Heydər – Atatürk!*

Mərhum şair Kələntər Kələntərli demişdi…

– Mən Azərbaycan xalqının və bu ölkədə yaşayan bütün insanların ulu öndər Heydər Əliyevə olan sevgi, məhəbbət və rəğbətini alqışlayıram. Xalq öz böyük oğlunu, Kreml labirintlərindən uğurla çıxmış yenilməz sərkərdəsini layiqncə qiymətləndirirsə, bu, gələcək uğurlara stimul olur.

Mən ləzgiyəm. Qətiyyətlə deyə bilərəm ki, Heydər Əliyev Azərbaycanda yaşayan bütün xalqların lideri, böyüyü, öndə gedəni idi. O, ləzgi xalqının təmsilçiləri ilə görüşəndə elə danışırdı ki, mən onun ləzgilər haqqında məlumatına heyran olurdum. Sonralar onun yəhudilərlə görüşünün video yazısına baxdım. Daha sonra ölkənin cənub bölgəsinin ağsaqqalları ilə görüşünü izlədim…Eləcə də, İvanovka sakinləri ilə söhbətini gördüm. O, Azərbaycan Respublikasında yaşayan bütün xalqların ümummilli lideri idi. O, böyük adam idi.

### Prezident ulu öndəri bizə daim xatırladır

Dövlət başçımız istənilən təntənəli mərasimdə, xüsusən, Yeni Azərbaycan Partiyasının qurultaylarında ümummilli liderimizin xalq qarşısındakı xidmətləri haqqında ətraflı söhbət açır. Partiyamızın sonuncu qurultayında da biz həmin ənənənin davam etdiyini gördük:

– Yeni Azərbaycan Partiyasının adı ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi. Burada, əlbəttə ki, onun 1970–1980-ci illərin əvvəllərində gördüyü işlər önəmli rol oynayırdı. Çünki mən bunu dəfələrlə demişəm və partiya üzvləri bunu yaxşı bilir, gənc nəsil də bilməlidir ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdə idi. Heydər Əliyevin fəaliyyətinin nəticəsində 1982-ci ildə isə qabaqcıllar sırasında oldu. Əgər iki respublika donor respublika idisə, onlardan biri də Azərbaycan idi.

O vaxt onun gördüyü işlər həm sənaye, həm kənd təsərrüfatı, həm yüngül sənaye sahələrini böyük dərəcədə inkişaf etdirdi, canlandırdı və insanlar o dövrü xatırlayırlar. Bir də ki, Heydər Əliyevin qətiyyəti, cəsarəti, müdrikliyi, xalqla daim təmasda olması, korrupsiyaya və rüşvətxorluğa qarşı amansız mübarizəsi haqlı olaraq xalq arasında ona böyük rəğbət qazandırmışdır.

### Mehriban Əliyevadan səmimi etiraflar…

– İlk növbədə, əlbəttə ki, Heydər Əlirza oğlu aydın ifadə olunan xarizmaya malik idi. Onun enerjisi ətrafda hər şeyi dəyişməyə qadir idi. Onun gəlişi ilə hər şey dəyişirdi. Onun fantastik yaddaşı, intellekti, hədsiz məlumatlılığı bəzən həlli müşkül görünən problemləri həll etməyə imkan verirdi. Mahiyyət etibarı ilə Heydər Əliyev fenomeni hələ də sonadək açılmayıb.

### Nəhayət, mənim qənaətim

…20 Yanvar faciəsi törədiləndə Bakıda deyildim. Ona görə də şəhidlərin güllələbaran edildikləri ünvanları yanvarın 22-də – sovet silahlılarının qəzəbli və nifrətli nəzərləri altında gəzdim. Hər yerə qərənfil düzülmüşdü. Qərənfilin üstündən süzülərək səkiyə döşənmiş daşda yanaqdan axan göz yaşı kimi görünən səhər şehi ürəyimi dağlamışdı:

*Mən səni şad yerə necə aparım,*
*Ay mənim gözümün yaşı, qərənfil.*
*Daşdan səs çıxmırdı milyon iliydi,*
*Sən necə ağlatdın daşı, qərənfil?*

Hamı kimi mən də elə bilirdim ki, daha hər şey bitdi. Daha azadlıq haqqında danışa bilmərik. Daha meydanlara çıxış da olmayacaq. Bu qədər adamı öldürən, şəhəri al-qana qərq edən cəlladlar bizə azadlıq verərlərmi?

Amma, sən demə, hələ bitməyibmiş. Elə həmin gün xəbər gəldi: “Azərbaycanın sabiq rəhbəri, istefada olan dövlət xadimi Heydər Əliyev ölkəmizin Moskvadakı Daimi Nümayəndəliyinə gedərək, 20 Yanvar faciəsinə görə SSRİ rəhbərliyini ciddi şəkildə tənqid edib və günahkarların cəzalandırılmasını istəyib.”

Bəli, azadlıq mübarizəmiz bitmədi. Əksinə, xalqın böyük oğlunun həmin qətiyyəti müstəqillik yolu ilə irəliləmək istəyən milyonlarla insana yeni ruh verdi. Azadlığa qovuşduq. Biz bütün dünyanın hesablaşdığı müstəqil Azərbaycan dövlətini yaratdıq.

Sonralar ulu öndərin Moskvadakı bəyanatının video lentini də görə bildik. Həmin videoda ümummilli liderimizin yanında uca boylu, nisbətən açıq rəngli qış geyimində olan bir gənc də görünürdü. O gün xalqın başına gətirilənlərə görə kədərli görünən, atasının taleyindən nigaran olan həmin gənc on illər sonra Şuşada, Ağdamda, Laçında Azərbaycan Bayrağını qaldırmağın xoşbəxtliyini yaşadı.

…Ötən hər gün bizi “Heydər Əliyev ili”ndəki hesabatımıza yaxınlaşdırır. Vicdanımızın bizdən soruşacağı “Sən Heydər Əliyevin qurduğu müstəqil dövlətin daha da qüdrətləndirilməsi istiqamətində hansı xidmərləri göstərmisən?”, “Heydər Əliyev İli”nə hansı uğurlarla gəlirsən?”, “Heydər Əliyev İli”nin beynəlxalq aləmə çıxarılması üçün hansı təklif və ya layihələrin var?”… kimi suallara cavab verməli olacağıq. Fikrimcə, belə suallara torpaqlarımızın düşmən tapdağından təmizlənməsində iştirak edənlər daha səlis və rəvan cavab verəcəklər.

Allah ulu öndərimizə rəhmət eləsin! Onun 100 illiyinin Şuşada qeyd edilməsi hamı üçün bayram olacaq.

Allah Ali Baş Komandanımızı qorusun! O, bizə “Qarabağ Azərbaycandır!” ifadəsini çəkinmədən və qürurla səsləndirmək imkanı yaratmışdır. Bu imkan ulu öndərimizin 100 illiyinə ən böyük hədiyyədir.

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***